***Miskin Abdal***
***A dağlar***

Xudafiz deyək, gəl halallaşax,
Dah ayrılıxdı, köşdü, a dağlar.
Soldu gül, nərgizin döndü xəzələ,
Pozuldu işrətin, keşdi a dağlar.

Zənbur sızıldaşır şan üstə bala,
Alladıf çoxların qoyufsan dala,
Bənd olma dünyada dövlətə, mala,
Axır aqibətin puşdu, a dağlar.

Keçdi novbaharın, yazın qış oldu,
Çərx hərrəndi, ömür qəməm tuş oldu,
Miskin abdal, xəyalların puç oldu,
Dolanıf güzarım düşdü, a dağlar.

***Abdal M. A dağlar // Azərbaycan aşıqları. – Bakı: Çaşıoğlu, 2004. – S. 30.***